**UOT 338.48**

*DOI: 10.25045/ASUCAAI.2025.06*

# TURİZM TƏHSİLİNDƏ SÜNİ İNTELLEKTİN İNTEQRASİYASI

**Səyavuş Məhişov Elman oğlu**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
sayavush.mahishov@admiu.edu.az

**Xülasə**

Məqalədə müəllif tərəfindən turizm təhsilində süni intellektin inteqrasiyasının əhəmiyyəti və təsirləri araşdırılır. Süni intellektdən istifadənin turizm təhsilinin müasir texnologiyalarla zənginləşdirilməsi, tələbələrin təcrübi bilik və bacarıqlarının inkişafı, habelə, fərdiləşdirilmiş təhsil yanaşmalarının tətbiqinə yaratdığı imkanlar öyrənilir. Süni intellekt sistemlərinin turizm sənayesindəki rolu, bu texnologiyaların təhsil proqramlarına necə daxil ediləcəyi və tələbələrin yeni turizm xidmətləri, müştəri analitikası, o cümlədən, rəqəmsal marketinq sahələrində əldə edəcəkləri bacarıqlar müzakirə edilir. Təhsil sahəsində süni intellektin tətbiqi ilə tələbələrin qərar qəbul etmə, məlumat təhlili və müştəri xidmətləri üzrə daha yüksək səviyyədə bacarıq qazanmasının aktuallığı təhlil olunur. Bu yanaşmanın gələcəyin turizm mütəxəssislərinin rəqabətqabiliyyətli və texnoloji yeniliklərə adaptasiyasında zəruri olacağı əsaslandırılır.

**Sayavush Mahishov**

**Integration of Artificial Intelligence in Tourism Education**

**Abstract**

The author examines the importance and impact of integrating artificial intelligence in tourism education. The opportunities created by the use of artificial intelligence for enriching tourism education with modern technologies, developing students' practical knowledge and skills, as well as the application of personalized educational approaches, are studied. The role of artificial intelligence in the tourism industry, how these technologies will be included in educational programs, and the skills that students will acquire in the areas of new tourism services, customer analytics, and digital marketing are discussed. At the same time, the relevance of students' gaining higher levels of skills in decision-making, data analysis, and customer service through the application of artificial intelligence in education is analyzed. It is justified that this approach will be necessary for future tourism professionals to be more competitive and adapt to technological innovations.

**Саявуш Махишов**

**Интеграция искусственного интеллекта в туристическое образование**

**Аннотация**

В статье автор рассматривает важность и последствия интеграции искусственного интеллекта в туристическое образование. Изучаются возможности, которые создает использование искусственного интеллекта для обогащения туристского образования современными технологиями, развития практических знаний и навыков студентов, а также

реализации персонализированных образовательных подходов. Обсуждается роль искусственного интеллекта в индустрии туризма, способы включения этих технологий в образовательные программы, а также навыки, которые приобретут студенты в области новых туристических услуг, аналитики клиентов и цифрового маркетинга. В то же время анализируется актуальность получения студентами более высоких уровней навыков принятия решений, анализа данных и обслуживания клиентов за счет применения искусственного интеллекта в образовании. Утверждается, что такой подход будет необходим будущим профессионалам в сфере туризма для повышения конкурентоспособности и адаптации к технологическим инновациям.

**Açar sözlər:** Təhsil proqramı, mədəni irs, tarixi abidə, turist, səsli bələdçi, virtual reallıq.

**Keywords:** Educational Program, Cultural Heritage, Historical Monument, Tourist, Audio Guide, Virtual Reality.

**Ключевые слова:** Образовательная программа, культурное наследие, исторический памятник, турист, аудиогид, виртуальная реальность.

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətli inkişafı, ölkəmizdə dünya miqyasında müxtəlif sahələrdə, o cümlədən, turizm sənayesində geniş tətbiq edilməyə başlamışdır. Aydın məsələdir ki, turizm sektoru xidmət sahəsi kimi müştəri ehtiyaclarını qarşılama və səyahət təcrübəsini fərdiləşdirmə istiqamətində yeni yanaşmalar axtarır. Süni intellektin bu sahəyə inteqrasiyası, turizm sənayesində xidmətlərin daha müasir, fərdiləşdirilmiş və effektiv şəkildə təqdim olunmasına imkan yaratmışdır. Turizm təhsilinə süni intellektin inteqrasiyası, gələcək nəsil turizm mütəxəssislərinin təlimi, bilik və bacarıqları, habelə, peşə kompetensiyalarının formalaşmasında mühüm rol oynayır [Quliyev, E., 2020, s. 75]. Bu səbəbdən, aktual mövzunun araşdırılmasını nəzərdə tutan məqalədə turizm təhsilində süni intellektin inteqrasiyası, onun təhsil proqramlarına necə daxil olacağı və turizm sənayesindəki dəyişikliklər şərh olunur.

Son illərdə ölkənin aparıcı ali təhsil müəssisələrində, o cümlədən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) süni intellektin turizm təhsilinə daxil edilməsi, bu sahədə nəzərəçarpan dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi təhsil yanaşmalarından fərqli olaraq, süni intellekt tədris prosesində yeni bacarıqların, metodların və yanaşmaların daxil olmasına imkan vermişdir. ADMİU-nun Kulturologiya fakültəsində “Turizm işinin təşkili” və “Turizm bələdçiliyi” üzrə bakalavriat, “Turizm və otelçilik” ixtisasında magistratura səviyyəsində təhsilin təşkilində süni intellektin tətbiqi ilə aşağıdakı istiqamətlərdə dəyişikliklərin müşahidə olunduğunu qeyd etməliyik:

- *Praktiki bacarıqların inkişafı.* Süni intellektin tətbiqi turizm təhsilində tələbələrə və magistrantlara müasir turizm xidmətlərini idarə etmək üçün praktiki bacarıqlar qazandırır. Məsələn, tələbələr süni intellektə əsaslanan proqramlar və alətlər vasitəsilə müştəri davranışlarını analiz edərək, onlara daha uyğun xidmətlər təklif etməyi öyrənirlər. Şübhəsiz ki, bu texnologiyalar təhsilalanların yalnız nəzəri bilikləri deyil, həm də real dünyadakı innovativ tətbiqləri anlama və istifadə etmə bacarıqlarını inkişaf etdirir.
- *Turizm iqtisadiyyatı və analitika.* Bəllidir ki, süni intellektin turizm təhsilinə inteqrasiyası, iqtisadi və maliyyə analizləri aparmağa imkan verən yeni alətlər təqdim edir.

Məsələn, süni intellekt turistlərin davranışlarını proqnozlaşdırmağa, bazar tendensiyalarını müəyyən etməyə və optimal qiymət siyasətlərini yaratmağa dəstək olur. Tələbələr, bu analitik alətlərdən istifadə edərək turizm şirkətlərinə müştəri tələblərinə uyğun təkliflər hazırlamağı öyrənirlər.

- *Fərdiləşdirilmiş təhsil yanaşmaları.* Süni intellekt alətləri təhsil prosesində tələbələrin fərdi ehtiyaclarına uyğun tədris planları və proqramları təqdim etməyə imkan verir. Müsbət haldır ki, Kulturologiya fakültəsində tədrisə cəlb olunmuş professor-müəllim heyəti tərəfindən tələbələrin bilik və bacarıqları izlənilir və buna əsasən tədris metodları fərdiləşdirilir. Sözsüz ki, bu yanaşma tələbələrə daha səmərəli və nəzərdə tutulmuş tələblərə uyğun təhsil almağa kömək edir.
- *Virtual tədris və simulyasiyalar*. Turizm təhsilində süni intellektin istifadəsi təhsilalanlara virtual mühitdə geniş təcrübə qazanmaq imkanı yaradır. Virtual reallıq texnologiyaları ilə birləşdirilən süni intellekt tələbələrin turizmlə bağlı müxtəlif mövzularda qərar vermə bacarıqlarını təkmilləşdirməyə də kömək edir [Əliyev, R., 2021, s.49]. Məsələn, tələbələr bir turistin səyahət planını tərtib etmə və ya bir turizm müəssisəsinin idarə olunması üzrə simulyasiyalar vasitəsilə təcrübə qazana bilirlər. Simulyasiya, real bir vəziyyəti və ya prosesi təqlid edərək onu praktiki tətbiq və analiz etmək üçün istifadə olunan bir üsuldur.
- *Müştəri xidmətləri və marketinq*. Süni intellektin turizm təhsilindəki tətbiqi müştəri xidmətləri və rəqəmsal marketinqin tədrisində yeni bir dövr açmışdır. Süni intellektlə işləyən chat-botlar, müştəri xidmətlərinin avtomatlaşdırılması və rəqəmsal marketinq strategiyalarının tədrisi, tələbələrin turizm sənayesində istifadə edilən yeni texnologiyalara uyğun bacarıqlar qazanmasını təmin edir.

Turizm təhsilində süni intellektin inteqrasiyası təhsilin bütün səviyyələrində müvafiq ixtisasların tədris proqramlarının yenilənməsini və inkişafını tələb edir. Bu inteqrasiyanı həyata keçirmək üçün aşağıdakı qrafikdə təqdim olunan bir neçə əsas addım atılmalıdır.




Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən turizmlə bağlı ixtisasların yenilənməsi nəzərdə tutulan təhsil proqramlarına süni intellektin əsas anlayışları, texnologiyaları və tətbiqləri barədə mühazirə və seminarlardan ibarət yeni fənlərin daxil edilməsinə ciddi tələbat hiss

edilir. Bu, tələbələrin süni intellekt sistemlərinin prinsiplərini daha dərindən mənimsəmələri və onların turizm sahəsində necə tətbiq olunduğunu hərtərəfli öyrənmələri üçün mühüm məqamdır.

Süni intellektin turizm təhsilinə inteqrasiyası məqsədilə multidissiplinar yanaşmaların tətbiqi də vacib məsələlərdən biridir [Aliyev, T., Həsənov, M., 2019, s. 21]. Bu yanaşma turizm, informasiya texnologiyaları, mühəndislik və iqtisadiyyat sahələrini birləşdirərək tələbələrin bu sahələrdə təməl biliklərə sahib olmasını təmin edəcəkdir. Həmçinin, tələbələr turizm sənayesindəki texnoloji dəyişiklikləri daha yaxşı başa düşməklə bu dəyişikliklərə uyğun fəaliyyət göstərmək bacarıqlarına yiyələnəcəklər.

Turizm təhsilində süni intellektin inteqrasiyasını həyata keçirmək üçün praktik təcrübə və simulyasiya proqramlarına xüsusi yer verilməlidir. Bunu aktual edən belə bir mühüm cəhətdir ki, tələbələr süni intellektin tətbiq edildiyi real dünyada səyahət marşrutlarının hazırlanması, müştəri xidmətlərinin göstərilməsi və s. sahələrdə təcrübə əldə etməlidirlər.

Nəhayət, süni intellektin turizm təhsili sahəsinə tətbiqini təmin etməkdən ötrü təhsil texnologiyaları ilə sıx əməkdaşlıq təşkil olunmalıdır. Bu əməkdaşlıq tələbələrə süni intellektin tədrisinə dair yeni vasitələr və metodologiyalar təqdim etməyə imkan yaradacaqdır.

Dediklərimizdən belə anlaşılır ki, süni intellektin turizm təhsilində tətbiqinin peşə kompetensiyaları baxımından böyük üstünlükləri vardır. Belə ki, süni intellekt tədris prosesini daha səmərəli və şəxsi ehtiyaclara uyğun hala gətirir. Tələbələrin inkişafını real vaxtda izləyərək, onlara öz sürətində təhsil almağa imkan verir. Həmçinin, dünya miqyasında turizm təhsili və sənayesi üzrə əməkdaşlıqları təşviq edir. Şübhəsiz ki, bunun genişləndirilməsi tələbələrin beynəlxalq turizm təcrübələrini qlobal səviyyədə izləmələrinə imkan verəcəkdir. Ən əsas xüsusiyyətlərdən biri də, süni intellektin təhsilalanların analitik düşünmə, məlumat təhlili və qərar qəbul etmə bacarıqlarını inkişaf etdirməklə onları turizm sahəsində qabaqcıl mütəxəssis olmağa hazırlamasıdır.

Beləliklə, turizm təhsilində süni intellektin inteqrasiyasının genişləndirilməsi, təhsil sahəsi ilə paralel olaraq turizm sənayesində də mühüm dəyişikliklərə səbəb olacaqdır. Süni intellektin bu sahədə tətbiqi, tələbələrin müasir texnologiyalarla tanış olmasını təmin edərək onları gələcək turizm mütəxəssisləri kimi formalaşmağa xidmət edəcəkdir. Bu yanaşma, turizm xidmətlərinin effektivliyini və səmərəliliyini artırmaqla kifayətlənməyərək təhsil sahəsində yenilikçi metodların tətbiqinə də gətirib çıxaracaqdır. Əminik ki, süni intellektin ADMİU-nun Kulturologiya fakültəsində turizm təhsilinə inteqrasiyası, gələcəyin turizm mütəxəssislərini peşə həyatına daha yaxşı hazırlamaqla onların yeni texnologiyaların və tələblərin öhdəsindən gəlmələrinə imkan verəcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. Quliyev, E. (2020). *Azərbaycan turizminin inkişaf perspektivləri*. Bakı: Elm və təhsil.
2. Əliyev, R. (2021). *Mədəni turizmin əsasları*. Bakı: Azərnəşr.
3. Aliyev, T., Həsənov, M. (2019). *Süni intellekt və turizm ənayesi*. Bakı: Azərnəşr.